http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 10 (1628) 31 may 2016 - cı il Qiyməti 50 qəpik

## Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

* * *

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

98 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş “İstiqlal Bəyannaməsi”ndən – “Əqdnamə”dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətli inkişafını uğurla davam etdirir.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.



BU SAYIMIZDA



BÖYÜK ELMİ ŞURADA 2

Azərbaycan Tibb Universiteti Macarıstan universitetləri ilə əlaqələrini genişləndirir 3



Rektor imtahanla bağlı göstərişlər verdi 4



“Elektron tibbin multidistiplinar problemləri” I Respublika elmi-praktik konfransı 4



Xarici tələbələrə dərs deyən müəllimlərin şəbəkəsi yaradılır 3

“Ginekoloji problemlərə və riskli hamiləliklərə müasir yanaşma” adlı elmi-praktiki simpozium 5



YADDA QALAN SƏYAHƏT 6

# BÖYÜK ELMİ ŞURADA

**Mayın 23-də Böyük Elmi Şuranın növbəti toplantısı keçirildi. Toplantını açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdıqdan sonra universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev "Azərbaycan Tibb Universitetində 2015- 2016- cı tədris ilində Buraxılış Dövlət Attestasiyasına və yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri" barədə məruzəsi dinlənildi.**

Dövlətçilik və siyasi fəaliyyətinin bütün dövrlərində xalq üçün misilsiz xidmətlər göstərmiş, müstəqil Azərbaycanın memarı və qurucusu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünün xalqımız tərəfindən bir neçə gün öncə qeyd edildiyini deyən Sabir Əliyev ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə vətəni və xalqı qarşısında, o cümlədən ölkəmizdə bütün sahələrin, təhsil və səhiyyənin inkişafındakı xidmətlərindən söhbət açdı. Bu siyasətin möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan S.Əliyev ölkəmizdə ali tibb təhsili sisteminin Avropa təhsil məkanına inteqrasiyası və ali tibb təhsilinin forma və məzmununun Boloniya Bəyannaməsi prinsiplərinə uyğunlaşdırılmasının universitet kollektivi qarşısında əsas vəzifə kimi qoyulduğuna diqqət çəkdi: "ATU-da buna uyğun olaraq ali tibb təhsilinin normativ hüquqi bazası əsasında təhsilin Boloniya Bəyannaməsinin müddəalarına uyğunlaşdırılması cari tədris ilinin sonu üçün başa çatdırılır. Belə ki, tibbi-biologiya ixtisasında olduğu kimi, 2016/2017-ci dərs ilindən başlayaraq pediatriya ixtisası üzrə tibb təhsilinin əsas təhsili pilləsinə qəbul dayandırılır.

Müalicə-profilaktika və hərbi tibb fakültələrində də stomatologiya və əczaçılıq ixtisaslarında olduğu kimi cari dərs ilinin buraxılış kursları da təhsili Boloniya Bəyannaməsinin prinsiplərinə uyğun başa çatdıracaqlar.

Beləliklə, ali tibb təhsilinin məzmunu və təlim texnologiyaları nəsil və formaca yeniləşdirilir, tibb təhsilinin əsas təhsili və rezidenturada təhsil, innovativ tədris metodikaları və materialları ilə təmin edilir, ali təhsildə keyfiyyətin təmin olunması məqsədilə Avropa kredit transfer sisteminə keçid başa çatdırılır, universitetin maddi-texniki bazası və strukturu günbəgün müasirləşdirilir.

Sözünə davam edən məruzəçi bildirdi ki, tibb təhsilinin yaxşılaşdırılması məqsədilə qarşıya qoyulmuş vəzifələri müvəffəqiyyətlə icra etmək üçün universitet rektorluğu, tədris hissəsi, dekanlıqlar və kafedralarımız əvvəlki illərdə olduğu kimi, 2015/2016-cı tədris ilinin yaz semestrində də əlindən gələni etməyə çalışmışdır.

Yeni Qaydaların tətbiqi ilə əlaqədar olaraq «Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında» Əsasnamənin (Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş) 4-cü bəndində rektorun əmri ilə dəyişiklik edilmişdir. Tələbə semestr boyu ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi hallarda ona 10 bal, fənn üzrə dərsburaxma 8%-ə qədər olduqda 9, 8-16%-ə qədər olduqda 8, 16-25%-ə qədər olduqda 7 bal verilir. Fənn üzrə ayrılmış auditoriya saatlarının 25%-dən çoxunda iştirak etmədiyi halda tələbə imtahana buraxılmır.

Xarici tələbələrlə tədrisin vəziyyəti və yaz semestrinin imtahan sessiyasının üzərində dayanan prorektor bildirdi ki, 2015-2016-cu tədris ilinin əvvəlindən ATU-da 22 ölkədən 676 nəfər tələbə, 176 dinləyici müraciət etmiş (bunlardan 31 nəfəri -YÖK), 18 nəfəri ixtisasartıran, 20 nəfərə yaxını rezident, 4 nəfəri doktorant, cəmi – 894 nəfər xarici vətəndaş təhsil alır: "Bu tələbələrdən 6 nəfəri İordaniya dövlət xətti, 113 tələbə isə Türkiyə cumhuriyyəti Seçmə və Yerləşdirmə Mərkəzi (YÖK) yolu ilə təhsilini davam etdirir.

2015-2016-ci tədris ili üçün müxtəlif ölkə və səfirliklərlə sıx əlaqələr saxlanılmış, yeni əcnəbi tələbələrin universitetə cəlb olunması üçün danışıqlar aparılmışdır. Belə ki, xarici tələbələr dekanı dosent İ.Əfəndiyev bir sira xarici ölkələrdə olmuş və yeni tələbələrin universitetə cəlb olunması üçün təbliğat işi aparmışdır.



2015-2016-ci tədris ilində universitetimizdə keçirilən Tələbə Elmi Cəmiyyətində, əcnəbi tələbə gənclərin 2-ci Ümumrespulika Forumunda və müxtəlif idman yarışlarında xarici tələbələr müvəffəqiyyətlə çıxış edərək diplom və sertifikatlara layiq görülmüşlər.

2015-2016-ci tədris ilində universitetimizdə 150 xarici ölkə vətəndaşı təhsil müddətini başa vurur. Lakin onlardan 119 nəfərinin məzun olması gözlənilir: "Tədris ili ərzində tələbələrin yaşayış şəraitinin yaxşılaşdırılması universitet rektorluğunun və xarici tələbələr dekanlığının daimi diqqət mərkəzində olmuşdur. Belə ki, dekanlıq tez-tez yataqxanada yaşayan tələbələrin məişət şəraiti ilə maraqlanmış və müvafiq problemlərin yerindəcə həll olunması üçün səylər göstərmişdir."

S.Əliyev onu da qeyd etdi ki, kredit sistemi ilə təhsil alan tələbələrin imtahanları universitetdə yaradılmış Virtual Test Mərkəzinin köməyi ilə mərkəzləşdirilmiş şəkildə kompyuter vasitəsilə, test üsulu ilə aparılır. Cari tədris ilinin yaz semestrinin imtahan sessiyası da kredit sistemi ilə təhsil alan tələbələr üçün həm semestr, həm də dövlət imtahanları kompyuter vasitəsilə, test üsulu ilə həyata keçiriləcəkdir. Universitetin axırıncı kurs tələbələri dövlət imtahanı qabağı son sessiya imtahanlarına başlamışlar. Bu günə olan məlumatlara görə, imtahana buraxılanlardan 15 nəfər imtahanlarda iştirak etməmiş, 37 nəfər imtahana buraxılmamışdır.

Keçən tədris ilinin payız semestrindən etibarən imtahan testlərinin ekspertizası və qəbulunda bir sıra dəyişikliklərin aparıldığını bildirən S.Əliyev qeyd etdi ki, kafedralarda tərtib edilmiş testlər əvvəlcə metodik innovasiya şöbəsində ilkin ekspertizadan keçdikdən sonra Virtual Test Mərkəzində fənn müəllim-ekspertləri tərəfindən son ekspertizadan keçirilir və yalnız bundan sonra imtahanlar üçün istifadə edilir.

Dekanlıqlar və tədris hissəsi tərəfindən tərtib olunmuş və təsdiq olunmuş şəbəkəyə uyğun dekanlıqlar və tədris hissəsi, kafedralar və ayrı-ayrı qruplarda təhsil alan tələbələrin arzularını nəzərə almaqla imtahan cədvəllərinin mövcud «Əsasnamə»yə uyğun tərtib etmiş, kafedraların və tələbələrimizin nəzərinə çatdırmışdır.

Çıxışında istehsalat müşavirələrinə də toxunan natiq dedi ki, 2015/2016-cı ilin yaz semestrinin imtahan sessiyasına və Buraxılış Dövlət Attestasiyalarına hazırlığın növbəti mərhələsi kimi universitet rektorunun müvafiq əmrinə əsasən, bütün fakültələrin hər bir kursu üzrə istehsalat müşavirələri keçirilmişdir.

Müşavirələrdə universitetin prorektorları, tədris-terapevtik klinikanın direktoru, professor S.Musayev, universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent C.Qasımov, tədris şöbəsinin müdiri, dosent N.Qasımov, tədris-metodik və innovasiya şöbəsinin müdiri, professor A.Qurbanov rektorun sərəncamına əsasən ayrı-ayrı iclaslara təhkim edilib, kafedralarımızı və tələbələri narahat edən bir sıra məsələlər açıq müzakirə obyektinə çevrilib.

Həmin müşavirələrdə dekanlığın və hər bir kafedra nümayəndəsinin məlumatları dinlənilmiş, tələbələr çıxış etmiş, qarşıya çıxan çətinlikləri və buraxılmış nöqsanları aradan qaldırmaq üçün tapşırıqlar verilmişdir. Bu müşavirələrdə imtahan şəbəkəsi tələbələrin nəzərinə çatdırılmış və imtahan cədvəllərinin tərtib olunması üçün tələbələrin rəyi öyrənilmişdir. Çıxışlar zamanı tələbələr kredit sistemində bəzi kafedralarda sərbəst tapşırıqların çoxluğundan və qəbulunda çətinlikdən, bacarıqların tədrisinin yaxşılaşdırılmasından, yüksək balların kafedra müdirinin icazəsi olmadan yazılmamasından, mühazirələrin keyfiyyətinin aşağı və kurslar üzrə differensə olunmadan oxunmasından, xəstə nümayişinin azlığından, klinik kafedralarda bəzən tələbələrə real olmayan yüksək qiymətin yazılmasından, ingilis dilində tədris aparan müəllimlərin dili mükəmməl bilməməsindən və s. şikayət edniblər.

Rezidenturanın qəbul imtahanları haqqında da bəhs edən prorektor dedi ki, burada qəbul imtahanları Dövlət Attestasiyasından sonra aparılırdı. Artıq bir neçə ildir ki, rezidenturaya qəbul imtahanları 2 mərhələdə aparılır və hər mərhələ 100 balla qiymətləndirilir. Cari tədris ili üçün I mərhələ – baza tibb fənləri üzrə aprelin 3-də aparılmış, II mərhələ isə – klinik fənlər üzrə iyul ayına planlaşdırılır.

Rezidenturaya 2016-cı il qəbulu üçün 1237 nəfər sonuncu kurs tələbəsi və əvvəlki illərin məzunları müraciət etmişdir ki, onlardan 60 nəfəri xarici ölkə təhsil müəssisələrini bitirənlərdir. Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq I mərhələ üzrə müsabiqə şərti 40 bal saxlanılmışdır (keçən il 30 bal). Sənəd verənlərin böyük əksəriyyəti universitetimizin məzunları və ya sonuncu kurs tələbələridir. Bu ilki müsabiqənin nəticələrinin heç də ürəkaçan olmadığını dilə gətirən natiq təəssüflə bildirdi ki, müsabiqə şərtini ödəyən müalicə işi və pediatriya ixtisasları üzrə 385, ödəməyənlər 474, stolmatologiya ixtisası üzrə müvafiq olaraq 36 və 76, tibbi-biologiya – 2 və 19, tibbi-profilaktika ixtisası üzrə isə 13 və 32 nəfər olmuşlar.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təqdim etdiyi məlumatı əsas gətirən S.Əliyev çıxışının sonunda rezidenturaya qəbul imtahanlarının I mərhələsində iştirak edənlərin, 58%-nin qeyri-müvəffəq qiymət almasından təəssüfləndiyini söylədi: "Nəticə göz qabağındadır. Geniş izahata, bəraət qazanmağa və bəhanə axtarmağa heç bir əsas yoxdur. Bu göstəricilər yaddaş biliyinə əsaslansa belə bizi qane etmir. Gələcək üçün düşünürəm ki, universitetin nəzdində dərsdən sonra ödənişli əsaslarla keçilmiş proqramı təkrar etmək, arzusu olanları bu imtahanlara istiqamətləndirmək və hazırlamaq məqsədilə qruplar yaradıb, səriştəli müəllimlərimizi bu işə cəlb etməliyik."



Kafedra müdirləri Arif Əfəndiyev, Amaliya Əyyubova, İsfəndiyar İsmayılov, Vaqif Şadlinski, Zakir Qarayev, tədris-metodik və innovasiya şöbəsinin müdiri Akif Qurbanov və əczaçılıq fakültəsinin dekanı Tahir Süleymanov çıxışlarında məruzəni qənaətbəxş qiymətləndirərək bu sahədə görülən işlərdən və həllini gözləyən problemlərdən söhbət açdılar. Natiqlər həmçinin mövcud olan bir sıra nöqsanların aradan qaldırılması üçün təklif və rəylərini də bildirdilər.

Məruzə və çıxışlarda səslənən fikirlərə öz münasibətini bildirən Gəray Gəraybəyli müzakirə olunan məsələnin vacibliyini önə çəkərək imtahan sessiyasının daha yüksək səviyyədə keçməsi və tələbələrimizin biliklərinin obyektiv qiymətləndirilməsi üçün müəllimləri məsuliyyətli olmağa çağırdı. Rektor bildirdi ki, bu vəzifəyə təyin olunduğu qısa vaxt ərzində tələbələrlə bir çox görüşlər keçirib, onların problemləri ilə yaxından tanış olub. Görüş zamanı tələbələrin şikayətlərini dinləyən rektor onların haqlı narazılıqlarını anonim deyil, yazılı qaydada qəbul etdiyini və elmi şuranın iclasında müzkirəyə çıxaracağnı dedi: "Prorektor Natiq müəllimlə birlikdə II kurs tələbələri ilə görüşüm zamanı bir türkiyəli tələbə qız çıxışında dedi ki, bizə dərsdə yeni heç nə öyrətmirlər. Türkiyədə orta məktəbdə oxuduğum burda ikinci kursda təkrar öyrədirlər. Müəllim bütün dərs boyu bizdən sorğu aparır, heç bir mövzu söyləmir. Ən acınacaqlısı isə bizdən para tələb edir. Bu həqiqətdir, bunu tələbə deyir. Bu hal bir çox kafedralarda mövcuddur. Belə əqidəyə malik müəllimlərin dərs deməyə haqqı varmı? Yenə də gəlib kadr məsələsinə çıxırıq. Biz kadr məsələsinə çox ciddi yanaşmalıyıq. Hər hansı güclü idmançı yaxşı məşqçi ola bilmədiyi kimi, hər hansı həkim və yaxud virtuaz cərrah da yaxşı müəllim olmaya bilər. İndi aramızda elə müəllimlər var ki, onların ingilis dilindən anlayışı belə yoxdur, lakin xarici tələbələrə bu dildən dərs deyir.

İndi başqa zamandır. Axı, beləlləri ingilis dilini bilmədən necə beynəlxalq konfranslarda çıxış edər, hansı bir xarici ədəbiyyatdan istifadə edər? Bu sadaladığım faktlar gələcəkdə universitetimizin reytinqini aşağı sala bilər. Mən xahiş edirəm, doktoranturaya və yaxud disteranturaya təqdimat yazanda əsaslandırılsın. Siz təsəvvür edin, rezidenturaya müsabiqədə 1146 nəfərdən 436-sı 40 balı keçməyib. Bunların 118 nəfəri 600, 194 nəfəri isə 550-dən yuxarı bal toplayıb, Tibb Universitetinə qəbul olunub və altı il oxuyaraq hər birimizin kafedrasından gəlib keçiblər. Gəlin etiraf edək, bu nöqsanlar hələ bir çox problemlərin həll olunmadığını göstərir. Bu problemlər həm imtahanlarda, həm də gündəlik qiymətləndirmə sistemindədir. Tələbələr deyir ki, eyni cavaba bir müəllim 8 bal yazır, digəri isə 4 bal. Axı bunun bir əsası və yaxud bir cədvəli olmalıdır."

Rektor yekun nitqində dərsliklərlə bağlı yaranmış problemlərə də toxundu və bu məsələnin universitetin metodik komissiyasında baxılması üçün ciddi tapşırıq verdi.

Sonra tədris şöbəsinin müdiri, dosent Nəsimi Qasımov, ATU- nun nizamnaməsinin 4 maddəsində edilmiş dəyişikliklər və əlavələr barədə məlumat verdi. Şura üzvləri qəbul olunmuş nizamnaməni yeni redaktədə təsdiq etdilər.

Böyük Elmi Şura müsabiqə məsələlərinin həll etməklə öz işini yekunlaşdırdı.

**Mənsur ƏLƏKBƏRLİ,**
**Fotolar Cənnətalı Çingizindir**

## Oxucularımızın nəzərinə

*Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin əmri ilə ATU-nun II uşaq xəstəlikləri kafedrasının professoru Hüseyn Həsən oğlu Qabulov universitetin elmi katibi təyin olunub və Böyük Elmi Şuranın 25 aprel 2016-cı il tarixli iclasında şura üzvləri bu haqda məlumatlandırılıb.*

*Qeyd edək ki, Hüseyn Qabulov 1965-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1982-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə qəbul olaraq 1988-ci ildə institutu müvəffəqiyyətlə bitirib, sonrakı illər təyinatla həkim-pediatr vəzifəsində çalışıb.*

*1999-cu ildə Azərbaycan Tibb Universitetində "Pediatriya" ixtisası üzrə əyani aspiranturaya daxil olan H.Qabulov 2002-ci ildə namizədlik, 2010-cu ildə doktorluq dissertasiyası müdafiə edib. 2011-ci ildə dosent, 2013-ci ildə isə professor elmi adı alıb.*

*2011-ildən Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının tibb üzrə Ekspert Şurasının üzvüdür.*

*II uşaq xəstəlikləri kafedrasının professoru H.Qabulov 2011-ci ildən ictimai əsaslarla ATU-nun Tədris Terapevtik Klinikasının II pediatriya şöbəsinin müdiri vəzifəsində çalışır. 200-dən çox elmi əsərin, o cümlədən monoqrafiya, dərslik, tədris vəsaiti, tədris-metodik tövsiyələr, səmərələşdirici təkliflərin müəllifidir.*

# ATU Macarıstan universitetləri ilə əlaqələrini genişləndirir

**Mayın-ın 17-də Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İmre Laslotski Azərbaycan Tibb Universitetinin qonağı olub. Səfir universitetin rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb, həmçinin ATU-da yaradılan təhsil-tədris şəraiti ilə yaxından tanış olub.**



Görüşdə rektor G.Gəraybəyli macar diplomata ATU-nun keçdiyi inkişaf tarixi, müasir fəaliyyəti, maddi-texniki bazası, potensial imkanları və həmçinin bu təhsil müəssisəsinin Azərbaycanda səhiyyənin inkişafında tutduğu önəmli rolu haqqında məlumat verib. Qeyd olunub ki, respublikada yeganə ali tibb təhsil ocağı olan ATU-nun ölkəmiz üçün peşəkar həkim və tibb işçilərinin hazırlanmasında əvəzsiz xidmətləri var.

ATU-nun beynəlxalq əlaqələrindən söhbət açan rektor bildirib ki, universitetimiz dünyanın bir sıra tanınmış ali təhsil və tədqiqat ocaqları ilə geniş əməkdaşlıq edir. Bu universitetlərin sırasında Macarıstanın Zemvelveys Universiteti də var ki, onunla da qarşılıqlı saziş əsasında müştərək tədbirlər təşkil olunub. Görüş zamanı professor Gəray Gəraybəyli gələcəkdə universitetlər arasında tələbə mübadiləsinin daha da çoxalmasını, Macarıstandan da Azərbaycana tələbələr göndərilməsini arzuladığını bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Laslotski ilk olaraq professor G.Gəraybəylini ATU-nun rektoru vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, ona bu şərəfli işində uğurlar arzulayıb. Sözünə davam edən səfir vurğulayıb ki, Azərbaycan və Macarıstan arasında bütün sahələrdə, o cümlədən elm-təhsil, mədəniyyət və səhiyyə sahəsində səmərəli münasibətlər formalaşıb. Ölkələrimiz arasında mövcud olan ikitərəfli əlaqələrin əhəmiyyətindən danışan səfir gələcəkdə bu əlaqələrin daha da gücləndirilməsinin zəruriliyinə toxunub.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulovanın da iştirak etdiyi bu işgüzar görüşdə Azərbaycan və Macarıstanın tibb universitetləri arasında əlaqələrin möhkəmələnməsi və qarşılıqlı əməkdaşlıq haqqında bağlanmış sazişin yenilənməsi barədə ilkin razılıq əldə olunub.

# Xarici tələbələrə dərs deyən müəllimlərin şəbəkəsi yaradılır

**Bu barədə mayın 18-də ATU-nun xarici tələbələrə dərs deyən müəllimlərin toplantısında çıxış edən universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova bildirib. Şəbəkənin könüllülük əsasında təşkil olunacağını qeyd edən R.Qabulova hesab edir ki, şəbəkə müəllimlərlə birgə işləmək üçün daha effektli olacaq.**



Toplantını giriş sözü ilə açan universitetin Tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev xarici tələbələrə dərs deyən müəllimlərin kifayət qədər hazırlıqlı, intellekt səviyyəsinin yüksək olmasına diqqət çəkərək bəzi problemlərə də toxunub. Bildirib ki, çox təəssüf ki, müəllimlər arasında elələri də var ki, onlar tələbələrlə davranışlarına diqqət yetirmir, auditoriyaya aid olmayan məsələlərdən söhbət açırlar: "Ancaq müəllim bilməlidir ki, o, tələbəyə tədrisdən başqa kənar söhbətlər etməməli, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün bütün imkan və bacarıqlarından maksimum istifadə etməlidir. Bu məsələ hörmətli rektorumuz, professor Gəray Gəraybəylini də narahat edən məsələlərdəndir. Müəllimlər hər şeydən öncə nəzərə almalıdırlar ki, bizdə təhsil alan hər xarici tələbə xalqımız, dövlətimiz, universitetimiz haqqında məlumatlar əldə edir, təssüratları yaranır. Onlar ölkələrinə geri dönən zaman ölkəmizin bir növ təbliğatçısına çevrilirlər".

S.Əliyev xarici tələbələrə dərs deyən müəllimlərin ingilis dilini mükəmməl bildiyini, ingiliscə təməl fənlərlə yanaşı, humanitar və texniki fənlərin də tədrisinə zərurət yarandığını qeyd edib. Xarici ədəbiyyatların az olmasına, hazırkı tədrisin müasir tələb və standartlarla uzlaşması üçün qarşıda görüləcək işlərin çoxluğuna diqqət çəkib. İrəli sürüləcək hər bir əhəmiyyətli təklifin nəzərə alınmasını təklif edib.

Rəhimə Qabulova yaranacaq şəbəkənin əhəmiyyətini qeyd edərək, toplantı iştirakçılarının diqqətinə bir sıra məsələləri də çatdırıb. Bildirib ki, yaradılacaq şəbəkə həmçinin tədrisin keyfiyyətinə də özünün müsbət təsirin göstərəcək: " Hər kəs bu məqsədlə səmərəli hesab etdiyi təklifi verə bilər. Şəbəkənin strukturu müəyyənləşdirilməli, xaricdə tibblə bağlı nəşr olunan yeni kitab və jurnalların siyahısı tutulmalı, lazım olan materiallar tərcümə olunmalıdır. Lazımlı dərs vəsaiti və məqalələr fakültələrin metodik şuralarında müzakirəyə çıxarılmalı, məqbul sayılanlar tərcümə olunaraq tədris zamanı istifadə edilməlidir."

R.Qabulova həmçinin internet saytlarına azərbaycan dilində yerləşdirilən materialların ingilis dilində versiyasının zəruriliyinə də toxundu: "Biz dünyada saytımız vasitəsilə tanınırıq. Ona görə də universitetin fəaliyyətini işıqlandırmaq üçün portalın ingilis dili versiyasına ehtiyac var. Universitetimiz nə qədər geniş təbliğ olunsa, beynəlxalq arenada imici o qədər arta bilər" -deyən R.Qabulova növbəti tədris ilində universitetdə Pribaltikadan olan tələbələrin də təhsil alacağını diqqətə çatdırdı.

Tədbirdə bir sıra təkliflər də səsləndirildi. Geniş müzakirələr əsasında toplantı başa çatdı.

**Qabil ABDULLAYEV**

# "Tiroid düyünlərinə multidistiplinar yanaşma" mövzusunda seminar

- **ATU-nun Tədris Cərrahiyyə Klinikasında Azərbaycan Tibb Assosasiyasının Patologiya Dərnəyinin "Tiroid düyünlərinə multidistiplinar yanaşma" mövzusunda seminarı keçirilib.**



Seminarda Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov, Tibb Assosasiyasının sədri Nəriman Səfərli, MediStyle Hospitalın endokrinoloqu dr. Fərhad Burzlu, Milli Onkologiya Mərkəzindən dr.Anar Əliyev, dr. Bahadur Abbasov, Azərbaycan Tibb Universitetindən dr.Camal Musayev, Qulaq-burun-boğaz cərrahı uzman dr.Yusif Hacıyev və klinikanın rezidentləri iştirak ediblər.

Seminarı açıq elan edən professor Nuru Bayramov bu cür tədbirlərin ümumi müzakirələrin aparılması baxımından çox əhəmiyyətli olduğunu vurğuladı. "Peşəkar insanların bir araya gələrək müəyyən məsələləri müzakirə etməsi təqdirəlayiqdir. Dövlət qurumu və tədris müəssisəsi olaraq borcumuzdur ki, belə mütərəqqi hadisələrə qapımızı açaq və dəstək olaq".

Azərbaycan Tibb Assosiasiyasının sədri Nəriman Səfərli rəhbərlik etdiyi qurum haqqında iştirakçıları məlumatlandırdı. Qeyd etdi ki, təşkilat əsasən üç istiqamət üzrə fəaliyyət göstərir: "İşimiz ilk öncə həkimlərin hüquqlarını qorumaq, ikincisi həkimlərin peşəkarlığını artırmaq və həkimlər tərəfindən əhalinin tibbi sahədə maarifləndirilməsini gücləndirməkdən ibarətdir. Son 3 ildə assosasiyanın fəaliyyəti daha sürətlə inkişaf edib. 30 ixtisas üzrə dərnəklər təsis olunub ki, burada hər bir həkim iştirak edə bilər".

N.Səfərli tədbirin məhz Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında keçirilməsindən məmnun olduğunu bildirdi və müştərək toplantıların gələcəkdə də davam etdiriləcəyini qeyd etdi.

Tədbirdə iştirak edən dr. Camal Musayev patoloji müayinələrin əhəmiyyətindən, tiroid patologiyalarının diaqnostikasından danışdı. MediStyle Hospitalın endokrinoloqu dr. Fərhad Burzlu tiroid düyünü olan xəstələrə kliniki yanaşma ilə bağlı məlumat verdi: "Endokrinoloq olaraq deyə bilərəm ki, son zamanlar ən çox inkişaf edən sahələrdən biri də məhz tiroidologiyadır. Qalxanvari vəz idarəedici olmasa da, funksiyaverici bir orqandır və ən böyük endokrin vəzdir. Bütün yaş dövrlərində qalxanvari vəzin əhəmiyyəti çox böyükdür. Qalxanvari vəzin bədxassəli düyünləri daha çox gənclərdə müşahidə olunur. Əgər yaşlı nəsillərdə belə hallara 4 faiz rast gəlinirsə, gənclərdə bu göstərici 40 faizdir. Qalxanvari vəzin fəaliyyəti ana bətnində olan uşağın 3-cü həftəsindən fəaliyyətə başlayır."



Daha sonra toplantıda tiroid düyünlərinin postoperativ histopatoloji diaqnostikası, tiroid düyünlərində cərrahi taktikanın seçilməsi, tiroid düyünlərinin diaqnostikasında radioloji müayinə üsullarının rolu və digər mövzularla bağlı müzakirələr aparıldı.

**ATU-nun mətbuat xidməti**

# "Elektron tibbin multidistiplinar problemləri" I Respublika elmi-praktik konfransı

**Mayın 24-də AMEA Rəyasət Heyəti, AR Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "Elektron tibbin multidissiplinar problemləri" I Respublika elmi-praktik konfransı baş tutub.**









Tədbirin məqsədi elektron səhiyyənin formalaşdırılmasına elmi dəstək verilməsi və prioritetlərin müəyyənləşdirilməsi, bu sahədə aparılan elmi tədqiqatların əlaqələndirilməsi, eləcə də xarici ölkələrin müvafiq elmi mərkəzləri ilə davamlı əməkdaşlıq əlaqələrinin təşkilindən ibarət idi.

AMEA-nın Əsas binasında keçirilən tədbirdə ölkənin müvafiq dövlət qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və AMEA-nın elmi-tədqiqat institutlarının informasiya texnologiyaları və tibb sahələri üzrə aparıcı alim və mütəxəssisləri, KİV nümayəndələri iştirak edirdi.

Konfransı giriş nitqi ilə açan AMEA prezidenti, akademik Akif Əlizadə e-tibbin formalaşması problemlərinin müxtəlif aspektləri ilə məşğul olan alim və mütəxəssislərin bir araya gəlməsi və gələcək əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından konfransın böyük əhəmiyyətə malik olduğunu bildirdi.

AMEA prezidenti akademiyada bu istiqamətdə aparılan elmi tədqiqatlardan söz açaraq bildirdi ki, prioritet elmi istiqamətlər sırasında biologiya və tibb sahəsində dünyanın yeni çağırışlarına uyğun araşdırmaların aparılması əsas hədəflərdəndir.



Səhiyyə nazirinin müavini Elsevər Ağayev ölkədə e-tibbin formalaşması ilə bağlı həyata keçirilən tədbirlər və əldə olunan uğurlardan danışdı. Bildirdi ki, bu istiqamətdə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" çərçivəsində kompleks tədbirlər həyata keçirilir.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri, AMEA Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov ölkədə səhiyyə və tibb elminin inkişafına göstərilən qayğıdan söz açdı. O, bütün regionlarda yeni səhiyyə obyektlərinin tikilib istifadəyə verildiyini, tibb elminin ən son yenilikləri, texnoloji innovasiyalar, müasir müalicə üsullarının klinika və sağlamlıq mərkəzlərində uğurla tətbiq edildiyini, həkimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün səmərəli işlərin görüldüyünü söylədi. Səhiyyə Nazirliyinin elmi müəssisələrində, o cümlədən Milli Onkologiya Mərkəzinin nəzdindəki Nüvə Təbabət Mərkəzində ən son texnologiyaların tətbiq edildiyini qeyd etdi.

Tədbirdə AMEA-nın akademik katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev "Elektron tibbin formalaşmasının aktual elmi-nəzəri problemləri və həlli perspektivləri" mövzusunda məruzə ilə çıxış etdi. Akademik e-tibbin e-hökumətin tərkib hissəsi olduğunu qeyd edərək bu sahədə mövcud problemlərin multidissiplinar xarakter daşıdığını nəzərə çatdırdı. E-tibbin texnoloji, iqtisadi, demoqrafik, psixoloji, hüquqi, etik və s. aspektlərinə xüsusi diqqət yetirilməsinin vacibliyini qeyd etdi. R.Əliquliyev İnformasiya cəmiyyəti məsələləri üzrə Tunis Dünya Sammiti, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya", Ümumdünya Səhiyyə Təşkilatının e-səhiyyəyə dair sənədlərində e-tibbin çoxaspektli problemlərinə xüsusi yer verildiyini diqqətə çatdırdı.

Tədbirdə həmçinin Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Vurğun Hacıyev "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyində mövcud tibbi informasiya sistemlərinin imkanları haqqında", Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli "Tibbi təhsildə kompyuter texnologiyaları", AMEA İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev "Azərbaycan Respublikasında tibbi informatikanın təşəkkülü və perspektivləri", Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tibb elmləri üzrə elmi şurasının sədri, AMEA-nın müxbir üzvü Nuru Bayramov "Təbabətdə informasiya texnologiyaları və ölkədə həllini gözləyən problemlər" mövzusunda məruzələrlə çıxış etdilər. Elektron tibbin elmi-nəzəri və praktiki problemlərindən bəhs edilərək, onların həlli üçün yeni imkanların yaranması baxımından konfransın mühüm əhəmiyyət kəsb etdiyi bildirildi.

Konfrans öz işini AMEA İnformasiya Texnologiyaları İnstitutunda üç paralel seksiya iclasında davam etdirib. "Tibdə İKT-nin elmi-nəzəri problemləri", "Tibdə İKT-nin praktiki problemləri" və "İKT-nin tibbi problemləri" seksiyaları üzrə elektron tibbin formalaşmasının konseptual əsasları, texnoloji təminatı, təşkilati-hüquqi, təhlükəsizlik, terminoloji problemləri, sosial-iqtisadi aspektləri və s. mövzularda 75 məruzə təqdim olunub.

# Rektor imtahanla bağlı göstərişlər verdi

**Mayın 26-da Azərbaycan Tibb Universitetində yay sessiyası imtahanlarına hazırlıqla bağlı müzakirə aparılıb. Universitetin rektoru, professor Gəray Gəraybəyli imtahan nəzarətçiləri ilə görüşərək sınaq prosesinə hazırlıq işləri ilə tanış olub, imtahanların yüksək səviyyədə təşkili üçün qarşıda duran məqsədlər haqqında danışıb.**

Rektor qeyd edib ki, iyun ayının 1-dən 21-dək ATU-da attestasiya, yekun dövlət imtahanları və buraxılış işlərinin müdafiəsi keçiriləcək: "Hər tədris ilinin sonunda bu prosedurlar verilir. Lakin bu il Tibb Universiteti dövlət imtahanları ilə bağlı xeyli yeniliklər tətbiq edib. Bunlardan biri də beynəlxalq standartlara uyğun olaraq Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan sistemi ilə imtahanların keçirilməsidir. Artıq yeni sistemin tətbiqi ilə bağlı treyninqlər keçirilib. İstənilən halda, OSKİ bizim üçün yeni üsuldur və prosesin təkmilləşdirilməsi davam etməlidir".

Professor Gəray Gəraybəyli bildirib ki, həmişə olduğu kimi qarşıda duran əsas məsələlərdən biri tələbələrə qarşı xoşməramlı münasibətin qorunub saxlanmasına nail olmaqdır: "Bununla bağlı universitetimizin xüsusi dəsti-xətti olub, belə də davam edəcək. İmtahanlar tam obyektiv şəraitdə keçirilməli, tələbələrə qayğı göstərilməlidir. Biz bu strategiyamıza sadiq olmalıyıq".

Daha sonra ATU-nun tədris hissə müdiri, dosent Nəsimi Qasımov çıxış edərək imtahanlara hazırlıq işlərinin gedişi ilə bağlı müvafiq sənədləri iştirakçıların diqqətinə çatdırdı. ATU-nun metodik innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) haqqında görüş iştirakçılarına ətraflı məlumat verdi. ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev imtahana mövcud hazırlığın vəziyyəti haqqında danışdı. Sonda prosesin daha da təkmilləşdirilməsi ilə bağlı imtahan nəzarətçilərinin təklifləri dinlənildi.

**ATU-nun mətbuat xidməti**


AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

112/K №-li ƏMR.

Bakı şəhəri 24 may 2016-cı il.

Əmək müqaviləsi ilə müəyyən edilmiş vəzifələrini, müəssisədaxili intizam qaydalarını pozduğuna görə, ƏM-nin 186-cı maddəsinə əsasən,

ƏMR EDİRƏM

1. III cərrahi xəstəliklər kafedrasının dosenti Sabir Hafiz oğlu Hacıyevə **töhmət** verilsin.
2. Fakultə dekanlarına tapşırılsın ki, əmr bütün professor müəllim heyətinin nəzərinə çatdırılsın.

Tələbələr tərəfindən III cərrahi xəstəliklər kafedrasının dosenti Sabir Hacıyev haqqında Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə şikayət məktubu göndərilib. Həmkarlar İttifaqı Komitəsinin Rəyasət Heyəti həmin məktubu müzakirə edərək adı şəkilən dosentin cəzalandırılmasına razılıq verib.

24 may 2016-cı il tarixində universitetin rektoru III cərrahi xəstəliklər kafedrasının dosenti Sabir Hacıyevə töhmət verilməsi haqqında əmr imzalayıb.

# GƏNC BİOLOQLARIN YARADICILIQ MÜSABİQƏSİNİN FİNAL MƏRHƏLƏSİ KEÇİRİLİB

**Mayın 19-da Azərbaycan Tibb Universitetində gənc bioloqların yaradıcılıq müsabiqəsinin final mərhələsi keçirilib. Müsabiqədən öncə şagird və valideynlərin, fənn müəllimlərinin, məktəb direktorlarının, Bakı Şəhəri üzrə Təhsil İdarəsi əməkdaşlarının, eləcə də ATU nümayəndələrinin qatıldığı rəsmi hissə baş tutub.**

Rəsmi hissəni Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət xanım Vəliyeva açaraq müsabiqə iştirakçılarına yaratdığı şəraitə görə rektor Gəray Gəraybəyli başda olmaqla universitet rəhbərliyinə dərin təşəkkürünü bildirib. Ölkəmizin qədim tarixə, zəngin mədəni irsə malik olduğunu vurğulayan Məhəbbət xanım dövlətimizin bu istiqamətdə apardığı təbliğatı Azərbaycanın dünyada tanınmasının başlıca səbəblərindən biri kimi xarakterizə edib. Eyni zamanda mütərəqqi bir dövrdə yaşadığımızı, əvvəlki dövrlərdən fərqli olaraq dəqiq elmlərə diqqətin artırıldığını söyləyib.





Uzun illərdir ki, IX-XI sinif şagirdləri arasında fənn olimpiadalarının keçirildiyini də diqqətə çatdıran xanım Vəliyeva əvvəllər olimpiadaların məzmununu mürəkkəb tapşırıqların əhatə etdiyini deyib. Onu da qeyd edib ki, artıq I-II mərhələlərdə şagirdlər məktəblərdə tədris olunan proqramlar üzrə dərin biliklər nümayiş etdirir, ancaq III respublika mərhələsində iştirak hüququ qazananlar daha mürəkkəb tapşırıqları yerinə yetirirlər.

Artıq 5-ci ildir ki, ölkəmizdə keçirilən "Sabahın alimləri" adlı fənn müsabiqələri barədə də tədbir iştirakçılarını məlumatlandıran Məhəbbət xanım bu günkü final müsabiqəsinin tarixçəsinə də toxunub. Analoji olaraq eyni formatda kimya və fizika fənləri üzrə də keçirilən müsabiqələrin müxtəlif sahələr üzrə yaradıcı qabiliyyətə malik uşaqların potensialını, xüsusi istedadını üzə çıxarmaq məqsədi daşıdığını vurğulayıb.

Sevdiyi ixtisasa hazırlaşan hər bir şagirdin gələcək hədəflərini müəyyənləşdirməsi, universitet həyatı ilə yaxından tanış olması baxımından yekun müsabiqələrinin orta məktəblərdə deyil, ali məktəblərdə keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayan Məhəbbət xanım bu mərhələyə qədər zəhməti olan müəllimlərin, valideynlərin və məktəb rəhbərlərinin fəaliyyətini də yüksək qiymətləndirib.

Tədbir iştirakçılarını Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin, professor-müəllim heyətinin adından salamlayan tədris işləri üzrə prorektor, professor Sabir Əliyev respublikamızın yeganə ali tibbi təhsil ocağının tarixi inkişaf yolundan ətraflı söhbət açıb. Hazırda universitetimizdə 1300 nəfərdən ibarət pedaqoji heyətin, o cümlədən 160 professorun çalışdığını xatırladan prorektor bildirib ki, onların bir çoxu Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvüdür. SSRİ dövlət mükafatı alan alimlərimiz var. 27 ölkədən gələn tələbələrin də təhsil aldığı universitetdə dərslər 3 dildə - Azərbaycan, ingilis və rus dillərində aparılır.

Yeni yaradılan universitet klinikaları, tibbi təhsilin rezidentura pilləsi haqqında da qonaqlara geniş məlumat verən prorektor biologiyanın təbabətin əsasında duran təməl fənni olduğunu bildirərək bu müsabiqədə iştirak edən, gələcəkdə Tibb Universitetində təhsil almaq arzusunda olan şagirdlərə istedadlı tələbələrimizi nümunə göstərib, gənc tədqiqatçılara uğurlar diləyib.

Biologiya fənninin təbabətdəki rolundan danışan ATU-nun tibbi biologiya kafedrasının müdiri, professor Canbaxış Nəcəfov müsabiqənin demokratik şəraitdə keçəcəyinə inamını ifadə edib.

Rəsmi hissədən sonra start verilən müsabiqənin final mərhələsinə 24 komanda qatılıb.

Bakı şəhəri ümumtəhsil məktəblərinin VIII-X sinif şagirdlərinin iştirak etdiyi müsabiqənin final mərhələsində tərkibi 3 nəfərdən ibarət olan komandalar 2 akademik saat ərzində ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinin proqramlarına uyğun olaraq biologiya fənni üzrə 30 sualdan ibarət testi, 5 məsələni və 1 təcrübə işini yerinə yetirib.

Qaliblər ekspert qrupu tərəfindən 5 bal sistemi ilə müəyyənləşdirilib. Çox bal toplayan komandalar qalib hesab olunub. Final mərhələsində qalib komandaların rəhbərləri ilə yanaşı, həmin məktəblərin direktorları, tərbiyə işləri üzrə direktor müavinləri və uşaq birliyi rəhbərləri də iştirak ediblər.

**Arif MƏMMƏDLİ**

# "Azərbaycan-Türkiyə 1-ci endokrin günləri" konfransı

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında "Azərbaycan-Türkiyə 1-ci endokrin günləri" konfransı keçirildi.**

Tədbirdə Türkiyədən dəvət olunmuş mütəxəssislər, Tibb Universitetinin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev, Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov, klinikanın baş həkimi, dosent Asiman Həsənov, eyni zamanda, klinikanın həkim və rezidentləri iştirak edib.



Konfransı açıq elan edən ATU-nun elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev tədbir iştirakçılarına Tibb Universitetinin fəaliyyəti haqqında geniş məlumat verdi. O qeyd etdi ki, universitet klinikalarının yaranmasında ümumilli lider Heydər Əliyevin çox böyük rolu olub. "Tibbə, səhiyyəyə diqqət ayıran Heydər Əliyevdən sonra, cənab prezident İlham Əliyev də bu diqqətdən kənar qalmayıb, Tibb Universitetinin nəzdində fəaliyyət göstərən klinikaların yaranmasında böyük töhvələri olub. Əvvəl Stomatoloji Klinika yarandı. Daha sonra onkoloji, son illərdə isə iki böyük klinika Azərbaycan Tədris Cərrahiyyə Klinikası və Tədris-Terapevtik Klinikasının yaranmasında bilavasitə iştirak etdi.

Klinikaları avadanlıqlarla təchiz etdi və öz xeyir duasını verdi".

Professor İ.İsayevin sözlərinə görə, klinikaların təkmilləşməsində türkiyəli həkimlərin də böyük köməkliyi olub: "Bizim həm dilimiz, həm dinimiz, həm də adətlərimiz yaxındır. Hər sahədə yeni işə başlayanda, türkiyəli həkimlər təmənnasız olaraq bizə yardımçı olublar. Demək olar ki, Türkiyənin əksər universitetləri ilə tələbə mübadiləsi edirik. Bizim əməkdaşlığımız bundan sonra da davam edəcək".

İ.İsayev sonda universitet rəhbərliyi adından Türkiyədən gələn qonaqlara öz təşəkkürünü bildirdi.

Tədbirdə iştirak edən deputat, opt.dr. Ceyhun İrgil Azərbaycanda olduğundan məmnunluq hissi keçirdiyini bildirdi və endokrin cərrahiyyəsi haqqında tədbir iştirakçılarını məlumatlandırdı: "Tiroid cərrahiyyəsində əvvəl hər kəsi əməliyyat edirdik. Ancaq çox şükür ki, son illərdə tiroid əməliyyatlarının 90 faizinin gərəksiz olduğu iddia edilir. İndi sadəcə 10 faiz əməliyyatlarımız olur. Nə qədər az əməliyyat etsək, bizim üçün bir o qədər yaxşı olar".

Daha sonra professor, dr. Seher Demirer Azərbaycanla bağlı öz təəssüratlarını bölüşdü: "Türkiyə torpaqlarından kənarda, başqa bir coğrafiyada mənim soydaşlarımla birlikdə olmağım, eyni dildə danışmağımız, eyni inanclara sahib olmağımız məni çox xoşbəxt etdi. Burada olmaq mənim üçün qürurvericidir".

Seher Demirer onu da bildirdi ki, hazırda onların universitetlərində təhsil alan azərbaycanlı tələbələr var və onlarla işləmək türkiyəli həkimlərə zövq verir.

Qeyd edək ki, konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Fatih Universiteti Tibb Fakültəsi Xəstəxanası, Ərzurum, Atatürk Universiteti, "Sağlamlıq Naminə Təbiblər" İctimai Birliyi, Ankara Tibb fakültəsi və Bursa Omena Cərrahi Mərkəzinin birgə təşkilatçılığı və dəstəyi ilə keçirildi.

# "Ginekoloji problemlərə və riskli hamiləliklərə müasir yanaşma" adlı elmi-praktiki simpozium

**Mayın 20-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında yerli və Türkiyədən dəvət olunmuş mütəxəssislərlə birgə "Ginekoloji problemlərə və riskli hamiləliklərə müasir yanaşma" adlı elmi-praktiki simpoziumu keçirildi.**

Simpozium öncəsi rəhbərlik arasında görüş keçirildi. Görüşdə ATU-dan elmi işlər üzrə prorektor İbrahim İsayev, Beynəlxalq Əlaqələr üzrə prorektor Rəhimə Qabulova, Tədris Cərrahiyyə Klinikasının direktoru Nuru Bayramov, klinikanın baş həkimi Asiman Həsənov, mama-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov iştirak etdilər. Türkiyədən isə professor Dr.Bülent Gülekli, professor Dr.Uğur Saygılı, professor Dr.Sabahattin Altunyurt, professor Dr.Cemal Posacı görüşə qatılaraq, ATU və Dokuz Eylül Üniversitesi arasında əlaqələrdən danışdılar. Türkiyəli professorlar ATU-da təhsilin yüksək səviyyədə olmasını qeyd etdilər və iki universitet arasındakı işgüzar əlaqələrdən məmnunluqlarını bildirdilər.



Daha sonra simpozium öz işinə başladı. Tədbiri giriş sözü ilə açan ATU-nun prorektoru İbrahim İsayev qonaqları salamladı və konfransa işində uğurlar dilədi. Daha sonra Dokuz Eylül Üniversitesinin rektoru Bülent Gülekli çıxış edərək, problemli hamiləliklər barədə danışdı. O, hamiləlik zamanı qadın bətnində yaranan infeksiyalar, sonsuzluq və bunun müalicəsi barədə məlumat verdi.

Üç hissədən ibarət simpoziumun 1-ci hissəsində riskli hamiləliklərə, 2-ci hissəsində ginekoloji onkologiya, 3-cü hissədə isə sonsuzluq probleminə həsr olunan məruzələr dinlənildi.

Simpozium mövzuların müzakirəsi ilə davam etdi.

**ATU-nun mətbuat xidməti**

# YADDA QALAN SƏYAHƏT

**"Mersedes" markalı avtobusumuz Azərbaycan Tibb Universitetinin həyatından çıxıb Bakı-Quba yolu ilə istiqamət götürdü. ATU Həmkarlar İttifaq Komitəsi üzvlərinin böyük əksəriyyətinin təmsil olunduğu bu iki günlük səyahət turu respublikamızın dilbər guşələrindən olan Qusar rayonuna idi.**

Universitetimizin rektoru, professor Gəray Gəraybəylinin tövsiyəsi ilə əməkdaşların mənalı istirahətinin təşkili məqsədi daşıyan bu cür səyahət turlarının il boyu davam etdirilməsi nəzərdə tutulub.

Avtobus yol boyu şütüyüb irəlilədikcə şəhərin qarışıq havasından ayrılmış insanlar xoş bir əhval-ruhiyyə ilə şirin söhbət edir, deyib-gülür, istirahəti təşkil edənlərə razılıq edirdilər.

Təbiətin məftunedici gözəlliyindən doymaq bilməyən səyahət iştirakçıları Azərbaycanımızın yaşıl çöllərini, bağ-bağatlı yaşayış məntəqələrini, atlas yarpaqlı meşələrini heyranlıqla seyr edə-edə üç saatın tamamında Qusar rayon mərkəzində yaraşıqlı bir binanın önündə avtobusdan endilər. Bura Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin göz oxşayan, könül açan "Şəfa" sağlamlıq düşərgəsinin həyəti idi.

Yol boyu əməkdaşları məlumatlandıran universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov səyahətçiləri səmimiyyətlə qarşılayan "Şəfa" sağlamlıq ocağının direktoru Zeynəddin Xasmetov təqdim etdi. Əməkdaşları gülərüzlə, mehribanlıqla qarşılayan Zeynəddin müəllim düşərgə barədə ətraflı məlumat verdi. Eyni zamanda düşərgənin təşkilində və yaradılmasında Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Emin Əfəndiyevin böyük əməyini qeyd etdi.

İlk gəzinti məkanı Şahdağ Qış İdman İstirahət Kompleksi oldu. Son illər burada möhtərəm prezidentimiz İlham Əliyevin xüsusu təşəbbüsü və qayğısı sayəsində yaradılmış adıçəkilən idman istirahət kompleksində böyük işlər görülmüşdür. Təbiətin bu əsrarəngiz guşəsi insan əlləri ilə daha da gözəlləşib. Biri-birindən yaraşıqlı binalar, meydançalar, dincəlmək üçün düzəldilmiş oturacaqlar bu yerləri daha da cana gətirmişdi.

Göy üzündə qartal kimi uçuşan kanatlar bir tərəfdən insanları dağın üstünə daşıyır, o biri tərəfdən qaytarıb gətirirdi. Universitet əməkdaşları kanatlarla gəzintiyə çıxdılar. Kanatların qalxdığı yüksəklikdə də xeyli yaraşıqlı tikililər diqqəti çəkirdi.

Bu gəzintidə universitetin tanınmış professor-müəllim heyəti iştirak edirdi. Bu gözəlliklərlə bağlı onlar da məmnunluqlarını bildirdilər.

Bir yandan insanın yaratdığı xarüqələr, bir yandan da lacivərd



göylərdən axıb gələn sərin, baldırğan, lilpar qoxulu məcun hava seli və ətrafın füsunkar gözəlliyi səyahətçiləri heyran qoydu.

Qartalların qıy vurub başımızın üstündə dövrə vurduğu qoca Şahdağına ehtiramımızı bildirərək "Şəfa"ya dönürük. Yol boyu gözümüz gözəllikdən, ruhumuz saf, təmiz, yarpız ətirli havadan doymaq bilmirdi...

Şam yeməyi çox mənalı, məzmunlu keçdi. Süfrəyə düzülmüş nemətlər bolluğu öz yerində, sazın sədaları altında səslənən mahnılar, şeir parçaları, alimlərin çıxışları çox mənalı, yaddaqalan oldu. Universitetin kafedra müdirləri, professorlar, dosentlər öz ürək sözlərini dedi, xüsusilə professor İbadulla Ağayevin səsləndirdiyi şeir parçaları və Balabəy Səfərovun sazda ifa etdiyi mahnılar gecəyə xüsusi bir rəng qatdı.

Ertəsi gün tezdən hər cür qayğı, qulluqla qarşılandığımız "Şəfa"nı tərk etməli olduq. Səmimiyyəti ilə yadda qalan Ziynəddin müəllim əməkdaşları yola salmağa çıxdı və "sizi yola salarkən demək istərdim ki, kaş bu mənzərəyə, bizim bu Qusara bir şeir də həsr etmiş olaydınız"- dedi.

*Qoca Qaf dağının sehrinə düşüb,*
*Təmiz havasını udmağa gəldim.*
*Səsimi zirvədə şahin qıyına,*
*Şəlalə səsinə qatmağa gəldim.*

Bu qonaqpərvər məkandan ayrıldıq və avtobusumuz Nabrana istiqamət götürdü.

Əməkdaşlarımız onlara doğma olan Nabrandakı "Təbib" istirahət düşərgəsində ehtiramla qarşılandı. Bura gəlməkdə məqsəd yay tətilində ATU-nun əməkdaşlarının istirahətini "Təbib" düşərgəsində daha mənalı təşkil etmək üçün düşərgədə görülən yenidənqurma işləri ilə tanış olmaq idi.

"Təbib" düşərgəsinin ərazisini gəzdik, idman meydançasını nəzərdən keçirdik, əməkdaşlar düşərgə barədə fikirlərini söylədilər və məlum oldu ku, hələ görüləsi bir sıra işlər var. Səyahət iştirakçıları əmin olduqlarını bildirdilər ki, universitetin rəhbərliyi "Təbib"in yenidən qurulmasına xüsusi qayğı ilə yanaşacaqdır.

"Təbib" düşərgəsinin ziyarətindən sonra iki günlük səyahət turu başa çatdı.

Şahdağdan başlamış mavi Xəzərə qədər olan ilahi gözəllik və insanların biri-biri ilə qurduğu ünsiyyət xoş bir təəssürat olaraq Tibb Universiteti əməkdaşlarının yaddaşına həmişəlik həkk olundu.

**Eldar İSMAYIL**

# ƏZİZ HƏMKAR, SEVİMLİ MÜƏLLİM

◆ **Bu günlərdə ümumi gigiyena və ekologiya kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Abdullayeva Atiqə Ağa qızının 60 yaşı tamam olub.**



**Ömrünün 60-cı baharını yaşayan Atiqə xanım Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun sanitariya-gigiyena fakültəsinə daxil olmuş və oranı 1979-cu ildə bitirmişdir. 1982-ci ildən Bakı şəhərinin müxtəlif xəstəxanalarının və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun laboratoriyalarında həkim-laborant vəzifəsində işləmişdir.**

A.Abdullayeva 2002-ci ildən indiyə kimi Ümumi gigiyena və ekologiya kafedrasında çalışır. 2009-cu ildə namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi almışdır.

Atiqə xanım hazırda kafedranın elmi-tədqiqat işlərinin yerinə yetirilməsində iştirak edir, 45 çap olunmuş elmi məqalənin müəllifidir. O, kafedranın və Universitetin ictimai işlərində fəal iştirak edir, ona verilən tapşırıqları vaxtında və yüksək səviyyədə yerinə yetirir. Atiqə xanım uğurlu pedaqoji fəaliyyəti, çalışqanlığı, tapşırılan işə məsuliyyətlə yanaşması və yüksək daxili intizamı ilə həm tələbələrin, həm də kafedranın professor-müəllim heyətinin rəğbətini qazanmışdır.

Kafedranın əməkdaşları Atiqə xanımı ürəkdən təbrik edir, ona təcrübəli müəllim, qayğıkeş ana, mehriban və əziz nənə kimi uzun ömür, can sağlığı və işlərində uğurlar arzu edir.

**Elmira ABASOVA,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

# ATU-nun tələbəsi müsabiqənin yarımfinalında uğurla çıxış edib

◆ **Tələbələr arasında keçirilən "Famelab" yarışması bu günlərdə başa çatıb. Yarışmanın məqsədi dəqiq elmlər, texnologiya, mühəndislik və tibb kimi sahələrdə təhsil alan və işləyən insanları, bacarıqlı kommunikatorları ortaya çıxarmaqdan ibarət idi.**

Sevindirici haldır ki, Azərbaycan Tibb Universitetinin tələbəsi də Britsh Council-un Qafqaz Universiteti ilə birgə keçirdiyi bilik yarışmasında yarımfinal mərhələsinə çıxıb.

ATU-nun II müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Fidan Bəylərova deyir ki, "Famelab" haqqında elanı görən andan onda yarışmada iştirak etmək həvəsi baş qaldırıb: "Online qeydiyyatdan keçib yarışmaya iştirak haqqı qazandım. Daha sonra isə yarımfinala vəsiqə qazanan 30 nəfərdən biri ola bildim. Onlardan yalnız ilk yerləri tutmuş 10 nəfər final mərhələsinə çıxa bilərdi".




Fidan Bəylərovanın sözlərinə görə, iştirakçılar 3 dəqiqə ərzində özlərinin seçdiyi müəyyən mövzu haqqında məlumatı qeyri-peşəkar auditoriyaya çatdırmalı olublar. Konkret meyarlara əsasən çıxışlar 5 nəfərdən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib.

ATU-nun tələbəsi "Tibbi simvollar və emblemlər" mövzusu ilə bağlı çıxış edib. O, gündəlik həyatımızda hər birimizin rast gəldiyimiz tibbi simvollar (məsələn apteklərdəki ilan və qədəh təsviri, qırmızı xaç və aypara və s.) haqqında auditoriyaya ətraflı məlumat verib: "Əsasən 4 simvol haqqında qısa məlumat verdim - Asklepi əsası, qədəhə sarılmış ilan, qırmızı xaç və aypara, həyat ulduzu. Bunlardan əlavə ilan təsvirinin tibbi simvolikadakı rəmzi mənası və yeri barədə də ümumi məlumatı auditoriyaya çatdırdım. Təəssüf ki, mövzu çox geniş olduğundan, zamanla bağlı problem yaşadım. Bununla belə auditoriyanın diqqətini cəlb edə bildim. Çıxışımın mətnini İngilis və Azərbaycan dillərində hazırlamışdım".

Birinci kurs tələbəsi olan Fidan deyir ki, bu, onun geniş auditoriya qarşısında ilk çıxışı idi. Digər yarımfinal iştirakçılarının hamısı yuxarı kurs tələbələri olublar: "İlk çıxışım olduğu üçün olduqca həyəcanlı idim, amma çalışırdım ki, bunu auditoriyaya və münsiflərə hiss etdirməyim. Final mərhələsinə vəsiqə qazana bilməsəm də, münsiflər tərəfindən müsbət rəy aldım. Onların səsləndirdiyi iradlar isə gələcək fəaliyyətimə yardım olacaq".

ATU tələbəsi bildirir ki, "Famelab" yarışması onun üçün bir çox baxımdan əvəzolunmaz təcrübə olub. O, belə tədbirlərdə iştirak etməyin şərtlərini öyrənib, yaxşı vaxt keçirməklə yanaşı, həm də müxtəlif universitetlərin tələbələri arasında yeni tanışlar qazanıb. Fidan Bəylərova gələcəkdə ATU-nun adını daha yüksək kürsülərdən səsləndirmək uğrunda çalışacağını bildirib.

**ATU-nun mətbuat xidməti**

## Pediatriya fakültəsi- 80

# Fakültə fəaliyyəti dövründə şərəfli inkişaf yolu keçib

**Ölkəmizdə tibb təhsilinin inkişafında Azərbaycan Demokratik Respublikası tərəfindən 1919-cu ildə yaradılmış Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tərkibində fəaliyyət göstərən tibb fakültəsinin müstəsna rolu olmuşdur.**

1930-cu ildə həmin fakültənin bazası əsasında 2 fakültədən ibarət (müalicə-profilaktika və sanitariya-gigiyena) müstəqil Azərbaycan Tibb İnstitutu yaradılmışdır (1991-cı ildə Universitet statusu almışdır) Bu tarixi hadisə ölkəmizdə tibb təhsilinin və səhiyyənin inkişafı üçün mühüm addım idi.

Sonrakı 10 illiklərdə dövrün tələbinə uyğun olaraq müxtəlif ixtisaslar üzrə həkim kadrları hazırlamaq məqsədi ilə yeni fakültələr yaradılmış və hazırda onların sayı 7-dir (müalicə-profilaktika fakültəsi I və II, pediatriya, tibbi-profilaktika, stomatologiya, əczaçılıq, hərbi tibb fakültələri).

Azərbaycanda o dövrdə uşaq səhiyyəsi sahəsində çalışan həkimlərin az olması, xəstəliklərin geniş yayılması və uşaq ölümü hallarının yüksək olması həkim-pediatr kadrlarının hazırlanması məsələsinin vacibliyini meydana çıxardı. Bu məqsədlə 1932-ci ildə ATİ-də ana və uşaq mühafizəsi fakültəsi açıldı. Bu fakültədə 2 ixtisas üzrə (mamalıq və ginekologiya, pediatriya) mütəxəssis hazırlamaq nəzərdə tutulmuşdur. Bu fakültə öz fəaliyyətini 1936-cı ilə qədər davam etdirmişdir.

Ana və uşaq mühafizəsi fakültəsinin yaranmasına qədər pediatr kadrları BDU-nun tibb fakültəsinin məzunlarının ixtisas kursları keçməsi yolu ilə hazırlanırdı. Bu kurslar 1925-cı ildə Bakı şəhərində təşkil edilmiş pediatriya institutunda fəaliyyət göstərirdi. Sonradan bu institutun bazası əsasında 1927-cı ildə «ET Ana və Uşaq Mühafizəsi İnstitutu» təşkil edilmiş və 1986-cı ildə onun əsasında müstəqil «ET Pediatriya İnstitutu» və «ET Mamalıq və Ginekologiya İnstitutu» yaradılmışdır.

1936-cı ildə Azərbaycan Xalq Səhiyyə Komisarlığının qərarı ilə (N 740-28 11 1936) müvafiq ixtisasa malik pedaqoji kadrların və tədris bazasının çatışmamazlığı səbəbindən sanitariya-gigiyena fakültəsi ləğv edilmiş və onun bazası əsasında pediatriya fakültəsi təşkil edilmişdir. Ləğv edilmiş fakültənin I-III kurs tələbələri pediatriya fakültəsində təhsillərini davam etdirmişlər. Əslində indiki pediatriya fakültəsi 1932-cı ildə təşkil olunmuş «Ana və uşaq mühafizəsi fakültəsi»nin varisi hesab edilməlidir. Qeyd etmək lazımdır ki, az sonra 1938-cı ildən sanitariya-gigiyena fakültəsinin fəaliyyəti yenidən bərpa olunmuşdur.

Pediatriya fakültəsinin ilk dekanı göz xəstəlikləri kafedrasının müdiri, professor A.Trubin olmuşdur. Sonrakı illərdə ardıcıl olaraq fakültəyə professor M.Əfəndizadə, G.Qurbanov, dosent P.Yüzbaşinskaya, professorlar A.Sultanov, S.Məmmədzadə, S.Hacıyeva, B.İbrahimova, N.Axundov, Y.Məmmədov, dosentlər A.Məhərrəmova, K.Abdullayev, professorlar A.Mustafayev, M.Bayramov, E.Pənahova, dosent Z.Məmmədəliyeva rəhbərlik etmiş, bütün bilik və bacarıqlarını fakültənin işinə həsr etmişlər. 1996-cı ildən hazırkı vaxta kimi fakültəyə dosent N.Nağıyev rəhbərlik edir.

Pediatriya fakültəsinin yaranması ilə əlaqədar olaraq yeni kafedra və klinikalar təşkil edildi. Onların yaranması və inkişafında BDU-nun tibb fakültəsinin 1920-ci ildə yaradılmış uşaq xəstəlikləri kafedrasının (indiki II müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrası) böyük rolu olmuşdur.

Bu kafedraya professor A.Karnitski rəhbərlik etmişdir. Sonrakı illərdə Respublikamızda pediatriyanın inkişafında böyük xidmətləri olmuş professor Ə.Qarayev, Z.Hüseynbəyov və digər klinisistlər öz elmi-pedaqoji fəaliyyətlərini məhz həmin kafedrada başlamışlar.

1937-cı ildə pediatriya fakültəsinin ilk iki profil kafedraları təşkil edildi. Bunlardan biri uşaqların fiziologiyası və dietetikası kursu daxil olmaqla erkən yaşlı uşaqların xəstəlikləri kafedrası (ilk müdiri, professor Z.Hüseynbəyov), digəri isə uşaq yoluxucu xəstəlikləri və vərəm kursu daxil olmaqla böyük yaşlı uşaqların xəstəlikləri kafedrası idi (ilk müdiri professor Ə.Qarayev). Bu kafedralar fəaliyyət göstərdikləri müddətdə həkim kadrlarının hazırlanmasında əsas rol oynamışlar.

1945-ci ildə təsdiq edilmiş yeni tədris planı və ştat cədvəlinə müvafiq olaraq fakültənin mövcud profil kafedraları əsasında uşaq xəstəliklərinin propedevtikası (ilk müdiri professor S.Hacıyeva), fakültə pediatriyası (ilk müdiri professor Ə.Qarayev), hospital pediatriya və uşaq yoluxucu xəstəlikləri kafedraları yaradıldı (müdiri əvəzçilik üzrə professor Ə.Qarayev).

Zaman keçdikcə fakültənin profil kafedraları daha da inkişaf etdirilmiş və dövrün tələblərinə uyğunlaşdırılmışdır.

1982-ci ildə hospital pediatriya kafedrasının bazası əsasında I uşaq xəstəlikləri (müdiri akademik A.Namazova) və II uşaq xəstəlikləri kafedraları yaradılmış (müdiri professor Ə.Hacıyev), fakültə pediatriyası kafedrası isə III uşaq xəstəlikləri kafedrası adlandırılmışdır (müdiri, professor L.Hüseynova).

1987-ci ildə II uşaq xəstəlikləri kafedrası ləğv edilərək I uşaq xəstəlikləri kafedrasına birləşdirilmiş və III uşaq xəstəlikləri kafedrası isə II uşaq xəstəlikləri kafedrası adlandırılmışdır.

1989-cu ildə I uşaq xəstəlikləri kafedrasının nəzdində təşkil edilmiş neonatologiya kursu 1990-cı ildə sərbəst kursa çevrilmiş və 1991-ci ildə isə həmin kursun əsasında neonatologiya kafedrası yaradılmışdır (ilk müdiri, professor N.Tağıyev).

Pediatriya profilli kafedraların təşkili və inkişafında, elmi-pedaqoji kadrların hazırlanmasında professorlardan Ə.Qarayevin, Z.Hüseynbəyovun, S.Şteynin, S.Hacıyevanın, M.Livanovun, S.Cəfərovanın, Ə.Hacıyevin, M.Bayramovun, L.Hüseynovanın, P.Katsın, N.Tağıyevin, V.Əsgərovun, dosentlərdən Ə.Cabbarzadənin, M.Quliyevin böyük xidmətləri olmuşdur.

Tarixi ənənələrin davam etdirilməsini, ölkəmizdə pediatriya elminin və tibb təhsilinin müasir səviyyədə yerinə yetirilməsini hazırda akademik A.Namazova, professorlar S.Musayev, İ.İsayev, A.Əyyubova, N.Quliyev, N.Hüseynova, S.Həsənov, N.Hüseynova və digərləri uğurla həyata keçirirlər. Onların rəhbərliyi ilə aparılan elmi-tədqiqat işləri pediatriyanın aktual problemlərinə, uşaq ölümünə səbəb olan xəstəliklərin, perinatal patologiya və yenidoğulmuş uşaqların xəstəliklərinin öyrənilməsinə həsr edilmişdir.

Son 10 ildə pediatriya profilli kafedraların professor-müəllim heyyəti tərəfindən 6 dərslik, 7 monoqrafiya, dərs vəsaitləri və çoxsaylı elmi məqalələr hazırlanmışdır . Fakültə alimləri Respublika tibb elmini Beynəlxalq konqres, qurultay və simpoziumlarda layiqincə təmsil edirlər.

Hazırda fakültənin tərkibində 7 kliniki, 3 nəzəri kafedralar və 1 kurs fəaliyyət göstərir. Bu kafedralarda 22 nəfər tibb elmləri doktoru (ondan 18 nəfəri professor), 47 nəfər dosent, 112 nəfər assistent (ondan 56 nəfəri tibb üzrə fəlsəfə doktoru) çalışırlar.Fakültə əməkdaşlarından 7 nəfəri əməkdar elm xadimi, 5 nəfəri əməkdar müəllim və 2 nəfəri əməkdar həkim fəxri adlarına layiq görülmüşlər.

Universitetin maddi-texniki bazası və təchizatı daima yaxşılaşır. Son illərdə 4 müasir Universitet klinikasının (onkoloji, stomatoloji, tədris-terapevtik, tədris-cərrahiyyə) istifadəyə verilməsi və uğurla fəaliyyətləri buna sübutdur. Tələbələrin müasir səviyyədə təhsil almaları və gələcək karyeraları üçün universitetdə bütün şərait mövcuddur.

Fakültədə tədris prosesi Azərbaycan və rus dillərində aparılır. Təhsil müddəti əvvəlcə 5 il, 1946-cı ildən etibarən 6 il müəyyən edilmişdir. Təhsil müddətində III-IV-V kurs tələbələri bacarıq vərdişlərinə yiyələnmək məqsədi ilə ölkəmizin tibb ocaqlarında və bir sıra xarici ölkələrdə (Türkiyə, Almaniya) peşə təcrübəsi keçirlər.

Fakültədə Tələbə Elmi Cəmiyyəti uzun illərdi ki, fəaliyyət göstərir. İstedadlı tələbələrimiz klinika və laboratoriyalarda elmi-tədqiqat işləri aparmaqla ilk uğurlar qazanırlar. Onlar «İlin ən yaxşı tələbə elmi tədqiqatçısı» adı uğurunda müsabiqədə, fakültə və ATU-nun yekun elmi konfranslarında, eləcə də beynəlxalq konfranslarda çıxış edərək diplom və mükafatlara layiq görülmüşlər. Eyni zamanda «Pediatriya» ixtisasına dərindən yiyələnmək məqsədi ilə hər il fənn olimpiadası keçirilir.

Fakültənin fəaliyyəti illərində yüksək ixtisaslı mütəxəssislər hazırlanmış, onun məzunları içərisindən görkəmli alimlər və səhiyyə təşkilatçıları yetişmişdir.

Hazırda fakültə məzunları müxtəlif ixtisaslar üzrə həkim mütəxəssis kimi ölkəmizin dövlət və özəl klinikalarında, poliklinikalarında, diaqnostika mərkəzlərində, uşaq tibb müəssisələrində, həmçinin bir sıra xarici ölkələrdə uğurla fəaliyyət göstərirlər.

Fakültə məzunlarının diplomdan sonrakı mütəxəssis hazırlığı 1 illik internatura hazırlığı keçməklə həyata keçirilmişdir (1973- 2010-cu illər).

Tibb təhsili sistemində aparılan islahatlara və dövrün tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart 50 nömrəli qərarına əsasən rezidentura xətti ilə həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar siyahısına «Pediatriya» ixtisası da daxil edilmişdir. Bu səbəbdən 2010-cu ildən pediatriya fakültəsinə tələbə qəbulu dayandırıldığından 2015/2016-cı tədris ili fakültənin sonuncu məzun ili olacaqdır. VI kursda təhsil alan 150 nəfər tələbə Dövlət Attestasiyasından sonra arzularına uyğun olaraq öz təhsillərini rezidenturada davam etdirəcək, ya da praktiki səhiyyədə çalışacaqlar.

Pediatriya fakültəsi 80 illik fəaliyyəti dövründə şərəfli inkişaf yolu keçmiş, ölkəmizdə peşəkar tibb mütəxəssisləri hazırlanmasında və tibbin müxtəlif sahələri üzrə aparılan elmi-tədqiqat işlərinin müasir səviyyədə yerinə yetirilməsinin aparıcı qüvvəsinə çevrilmişdir.



**Nəriman NAĞIYEV,**
*Pediatriya fakültəsinin dekanı, əməkdar müəllim, dosent*

# Tələbələrimiz Heydər zirvəsini ziyarət etdilər

Heydər Əliyevin 93-cü ildönümü ərəfəsində Böyük Qafqaz dağ silsiləsinin Qızıl Qaya massivində 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə təşkil edilmiş növbəti kütləvi yürüş uğurla başa çatıb.



Qubanın Xınalıq kəndindən başlayan yürüşə peşəkar alpinistlər, media nümayəndələri, ayrı-ayrı idarə və müəssisə işçiləri qoşulub. Həmçinin yürüşdə Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin və FAİREX-in nəzdində yaranmış Medicus Extreme Clubun üzvləri də iştirak edib.



Sərt qayalıqlardan keçən yürüş iştirakçıları 2 gün davam edən çətin yolçuluqdan sonra Heydər Əliyev zirvəsinə yetişə biliblər.

Bu yürüşü Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə Hava və Ekstremal İdman Növləri Federasiyası təşkil edib. Şahdağ ərazisində qeyri-sabit hava şəraitinə baxmayaraq yürüş iştirakçıları yüksək əhval-ruhiyyə ilə "Heydər zirvəsi"nə qalxaraq görkəmli siyasətçi və dahi şəxsiyyət Heydər Əliyevin xatirəsini yad edib. Son illərdə bu aksiyaya qoşulanların sayı ötən illərlə müqayisədə dəfələrlə artaraq xoş bir ənənə halını alıb və bu kütləvi yürüş ənənəsi "Heydər zirvəsi"ni xalqın ziyarətgahına çevirib. Zirvəni ziyarət etmək istəyən vətəndaşların arzularının rahat şəkildə gerçəkləşdirilməsinə şərait yaradılıb.

## "Nə? Harada? Nə zaman?" bilik yarışmasının qalibləri bəlli olub



Azərbaycan Tibb Universitetində Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" (NHN) intellektual bilik yarışması üzrə ATU NHN Kuboku təşkil olunub.

Yarışa həmçinin ATU-nun Apoptoz İntellektual Oyunlar Klubu təşkilati dəstək verib.

Qalib komandalara kubok, medal və digər qiymətli hədiyyələr təqdim olunub.

İlk üç yeri müvafiq olaraq İnvictus (1) ,Şeş-Qoşa (2), Paradoks (3) komandaları bölüşüblər.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri :**

- Klinik allerqologiya və immunologiya kursu
- Histologiya, embriologiya və sitologiya kafedrası
- Məhkəmə təbabəti kafedrası

**Kafedraların professorları (elmlər doktorları):**

- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 1 yer

**Kafedraların dosentləri (fəlsəfə doktorları):**

- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Fizioterapiya və idman təbabəti kafedrası - 1 yer
- Ped.fak.Daxili xəstəliklər kafedrası - 1 yer
- Epidemiologiya kafedrası - 1 yer
- Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer (0,25 vahid )
- Latın dili kafedrası - 1 yer
- Ümumi və toksikoloji kimya kafedrası -1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Terapevtik və pediatrik propedevtika kafedrası - 2 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,75 vahid)
- Neyrocərrahlıq kursu -1 yer (0,5 vahid )
- Oftalmologiya kafedrası -1 yer (0,5 vahid )
- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 2 yer
- III cərrahi xəstəliklər kafedrası -1 yer (0,75 vahid )
- III cərrahi xəstəliklər kafedrası -1 yer (0,5 vahid )
- Urologiya kafedrası - 1 yer
- Ped.fak.Daxili xəstəliklər kafedrası - 1 yer (0,25 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası -1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası -1 yer (0,5 vahid)

**Elmi Tədqiqat Mərkəzinin «Toksikoloji» şöbəsi**
(kiçik elmi işçi) -1 yer

**- Elmi Tədqiqat Mərkəzinin «Bioloji kimya» şöbəsi**
(kiçik elmi işçi) - 1 yer

**- Elmi Tədqiqat Mərkəzinin « Patoloji proseslərin modelləşdirilməsi və eksperimental terapiya » şöbəsi**
(baş elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 31 may 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23: Telefon: 597-43-23**

# Tarıverdiyeva Esmira Qulam qızı

**Azərbaycan tibb elminə və tibb ictimaiyyətinə ağır itki üz verib. Azərbaycan Tibb Universitetinin terapevtik stomatologiya kafedrasının dosenti Tarıverdiyeva Esmira Qulam qızı ömrünün 79-cu baharında əbədiyyətə qovuşub.**

E.Tarıverdiyeva 1937-ci il dekabrın 27-də Bakı şəhərində dünyaya göz açıb, 1959-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun stomatologiya fakültəsinin ilk məzunlarından olub. O, 1959-1963-cü illərdə 1 saylı poliklinikada həkim-stomatoloq vəzifəsində çalışıb, 1963-1965-ci illərdə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda klinik-ordinatura kursu keçib. 1965-ci ildən həyatının sonuna qədər – 50 ildən artıq bir müddətdə Azərbaycan Tibb Universitetinin terapevtik stomatologiya kafedrasında fəaliyyət göstərərək baş laborant, assistent, dosent vəzifələrində çalışıb, yüksək ixtisaslı həkim-stomatoloq kadrlarının yetişdirilməsində əvəzsiz xidmətlər göstərib. E.Tarıverdiyeva elmi-tədqiqat işlərini yüksək səviyyədə yerinə yetirərək 1972-ci ildə namizədlik dissertasiyası müdafiə edib. O, çap olunmuş çoxsaylı elmi əsərlərin, dərs vəsaitləri və səmərələşdirici təkliflərin müəllifi, uzun illər stomatologiya fakültəsinin elmi şurasının, stomatologiya üzrə ixtisaslaşdırılmış müdafiə şurasının problem və metodik komissiyanın üzvü olub, dəfələrlə ölkəmizdə və onun hüdudlarından kənarda keçirilən beynəlxalq miqyaslı elmi forumlarda elmi məruzələrlə çıxış edib.



Müəllimlərin və tələbələrin sevimlisi olan E.Tarıverdiyevanın dərin məzmunlu gözəl mühazirələri, əsl pedaqoqa layiq məcrada apardığı təcrübə dərsləri yaddaşlara əbədi həkk olunub. Pedaqoqluq ona Allah vergisi kimi verilmişdi və o, həkimlər, pedaqoqlar ailəsində tərbiyə almış, F.Əfəndiyev, Z.Məmmədov, A.Sadıqov, B.Eyvazov, M.Nəzərli kimi alimlərin əhatəsində böyüyüb boya-başa çatmışdı. Əslən Şuşadan olan valideynlərinin bütün gözəl xüsusiyyətlərini, Qarabağın kübar qadınlarına məxsus bütün incəlikləri özündə, öz xarakterində cəmləşdirən E.Tarıverdiyeva əsl ziyalılıq, əsl insanlıq rəmzinə çevrilmişdi. Yüksək mədəniyyət, yüksək intellekt səviyyəsini uşaq yaşlarından canına hopduran, Azərbaycanın görkəmli həkim-alimləri mühitində böyüyən E.Tarıverdiyeva şübhəsiz ki, gələcəkdə həkim olmaya bilməzdi.

Esmira xanım zəngin bir ömür yolu keçərək öz bilik və bacarıqlarını ürəkaçıqlığı, böyük səmimiyyətlə həmkarları və tələbələri ilə bölüşərdi. O, tələbələr üçün inam mənbəyi, müdriklik zirvəsi idi və tələbələri üçün hər şeyi edirdi ki, onlar yüksək ixtisaslı mütəxəssis olmaqla yanaşı, vətənə, millətə məhəbbət hissilə böyüsünlər. Həyatının son illərində dosent E.Tarıverdiyeva stomatologiyanın ən mürəkkəb şöbələrindən biri – "Ağız boşluğunun selikli qişasının xəstəlikləri" – haqqında silsilə mühazirələr oxuyurdu. Onun özünəməxsus həyat mövqeyi var idi. Naqisliyə, ədalətsizliyə qarşı dərhal reaksiya verir, həmişə ədaləti müdafiə edir, öz obyektiv mövqeyini qoruyub saxlaya bilirdi. Dosent E.Tarıverdiyeva kafedranın canlı tarixi idi və o, həmişə kafedranın ənənələrinin qorunub saxlanmasına çalışar, daim onun köməyinə, onun təcrübəsinə, onun müdafiəsinə ehtiyacı olanların yanında olardı. Esmira xanımın qəlb qapısı həmişə dostları, həmkarları, tələbələri üçün açıq idi. Lakin təəssüf ki, amansız ölüm onun ülvi arzularını da özü ilə birlikdə apardı.

Dosent Esmira xanım Tarıverdiyeva bütün tələbələrinin, uzun illər onunla çiyin-çiyinə işləyən həmkarlarının, stomatologiyada ilk addımlarını atan gənc həkimlərin, bütün onu tanıyanların, dost və tanışlarının, doğmalarının qəlbində daim yaşayacaq, xoş xatirələrlə anılacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

*Zöhrab Qarayev, Vaqif Şadlinski, Zülfüqar Musabəyov, Rəna Əliyeva, Məhbubə Vəliyeva, Mübariz Allahverdiyev, Ziyəddin Məmmədov*

# IDEA İctimai Birliyi ATU tələbələrini "Sahillər təmiz qalsın" aksiyasına dəvət edir

IDEA İctimai Birliyi hər il çimərlik mövsümündən əvvəl və sonra Bakının sahilyanı ərazilərindən birində təmizlik aksiyası həyata keçirir. Ənənəyə sadiq qalaraq, bu il də "Təmiz Şəhər" ASC ilə birgə yeni təmizlik aksiyası keçiriləcək.

Aksiya Ümumdünya ətraf mühitin mühafizəsi günündə, yəni 5 iyun 2016-cı il tarixində baş tutacaq.

Qeyd edək ki, iştirakçılar bütün sanitar normalara cavab verən ləvazimatlarla təchiz olunacaqlar. Aksiyada iştirak etmək istəyən şəxslərdən ad və soyadını, eləcə də əlaqə nömrəsini 3 iyun tarixindən gec olmayaraq "təmizlik aksiyası" başlığı altında info@ideacampaign.org elektron poçt ünvanına göndərmələri xahiş olunur.

Aksiya zamanı iştirakçılar nəqliyyat və qida ilə təmin olunacaqlar.

Əlavə məlumat üçün: +994 12 4976316 nömrəli telefonla əlaqə saxlaya bilərlər.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyi 2011-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən ətraf mühit çağırışları ilə bağlı ictimai maarifləndirmə və fəaliyyəti təşviq etməklə Azərbaycanın və Qafqaz regionunun zəngin təbiətini mühafizə etmək və onu gələcək nəsillər üçün saxlamaq məqsədilə təsis edilib.

IDEA International Dialogue for Environmental Action

**ATU-nun mətbuat xidməti**

**Fatemeh TAĞIZADEH,**
*Hazırlıq şöbəsinin dinləyicisi*



## CANIM AZƏRBAYCAN

Bu gözəl ölkəyə cənnəti-məkan demişəm,
Aləmi inkişafına heyran demişəm.

Cəmalın gördüm, qan damara zor elədi,
Bu canımı millətə qurban demişəm.

Xalqımın haqqını dünya tanısın,
Hərbidə Ermənistanı peşman demişəm.

Dilimiz bir, dinimiz birdi bizim,
Bu məmləkətin dostudur İran demişəm.

Vəsfində nə qədər söz desəm yenə azdı,
Dil açandan "Canım Azərbaycan" demişəm.

### Etibarsız sayılır

Məmmədova Leyla Hüseyn qızına 2007- ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 146A qrup tələbəsi Əhmədova Sevinc İntiqam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

"Təbib" qəzetinin əməkdaşları iş yoldaşları Arif Məmmədliyə qaynanası **Məxmər Ələkbər qızının** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tədris Terapevtik Klinikanın kollektivi iş yoldaşları Aytən Qasımovaya atası **Tofiq Qasımovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tədris Terapevtik Klinikanın kollektivi III daxili xəstəliklər kafedrasının tədris hissə müdiri, dosent **Elxan Orucovun** vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

Tədris Cərrahiyyə Klinikanın rəhbərliyi və kollektivi cərrahi xəstəliklər kafedrasının tibb üzrə fəlsəfə doktoru, həkim-cərrah Pərviz Abbasova **atasının** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@amu.edu.az
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 312